Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 2023-cü il 25 iyun tarixli 11 nömrəli qərarı ilə qəbul edilmişdir

Rektor: E.İsayev

**Naxçıvan Dövlət Universitetinin əlavə ali təhsil ixtisaslarına qəbul üçün sənəd təqdim etmiş şəxslərlə müsabiqənin keçirilməsi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və ali təhsil pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir Azərbaycan Respublikası vətəndaşının Naxçıvan Dövlət Universitetinin (bundan sonra - Universitet) əlavə ali təhsil ixtisaslarına qəbulu üçün müsabiqənin keçirilməsi qayda və şərtlərini müəyyən edir.

1.2. Əlavə təhsil hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinin, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasının, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır.

1.3. Universitetdə əlavə təhsil təkrar ali təhsil istiqaməti üzrə həyata keçirilir.

1.4. Təkrar ali təhsil istiqaməti üzrə təhsil müddəti 4 ildir.

1.5. Təkrar ali təhsil istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq sənəd - diplom verilir.

1.6. Universitetdə əlavə təhsilinin istiqaməti, məzmunu, forması, təşkili və onlara müvafiq sənədin verilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na əsasən müəyyən edilir.

## 2. Əlavə ali təhsil ixtisaslarına qəbul üçün ixtisasların qəbul planı və elanın verilməsi

2.1. Universitetinin Elmi Şurasının qərarına əsasən "Əlavə (təkrar) ali təhsil ixtisaslarına qəbul üçün ixtisasların müəyyənləşməsi və ixtisasların qəbul planı" təsdiq edilir.

2.2. "Əlavə (təkrar) ali təhsil ixtisaslarına qəbul üçün elan" mediada, Universitetin rəsmi internet səhifəsində, sosial şəbəkələrdəki səhifələrdə dərc olunur.

## 3. Müraciətlərin qəbul edilməsi

3.1. Müsabiqədə ali təhsil müəssisələrini bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom) almış Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

3.2. Müsabiqədə iştirak etmək üçün sənədlərini təqdim etmiş şəxslərin dövlət nümunəli təhsil sənədlərinin hüquqiliyi yoxlanılır və müvafiq bazada diplomları aşkarlanmayan şəxslərin müraciəti ləğv edilir.

3.3. Xarici ölkələrin ali təhsil müəssisələrinin məzunları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əsasən ali təhsilə dair kvalifikasiyasının tanınmasına dair qərar qəbul edildikdə və tanınma şəhadətnaməsi aldıqda, müsabiqədə iştirak etmək üçün müraciət edə bilərlər.

3.4. Müraciət üçün portal.edu.az. platformasında qeydiyyatdan keçmək, yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Əlavə ali təhsilə elektron sənəd qəbulu" xidmətini seçmək lazımdır. Açılan səhifədə müvafiq qəbul xətti üzrə şəxsi və qəbul məlumatlarının daxil edilməsi, təhsil haqqının ödənilməsi mümkün olur. Bu bölmə əlavə təhsilin təkrar ali təhsili növündə təhsil almaq üçün elektron sənəd qəbulunun həyata keçirilməsini prosesini əhatə edir. Qəbul modulu vasitəsilə təhsil müəssisəsinə qəbul olmuş və qəbul olmaq istəyən şəxslərin müraciətlərinə baxılacaq və müraciətlər statuslarla izlənilə biləcək. Bu modulda ali təhsil pilləsinin bakalavriat səviyyəsinə təkrar ali təhsil üzrə sənəd qəbulu prosesi əhatə olunur.

3.5. Təkrar ali təhsilə qəbul üçün sistemdən istifadə ardıcıllığı aşağıdakı kimidir:

3.5.1. Müəssisəyə ixtisas əlavə edilir;

3.5.2. Müəssisəyə əlavə edilmiş ixtisaslar üzrə təhsil haqlarını və ödəniş formaları təsdiq edilir;

3.5.3. Ödəniş şərtləri aktiv edilir;

3.5.4. Vətəndaşlar üçün ixtisaslar üzrə icazə verilir;

3.5.5. Müəssisə son tarix təyin edə bilir (məcburi deyil);

3.5.6. Müraciətlərə baxılır və yoxlanılır;

3.5.7. Diplomun həqiqliyi yoxlanılır;

3.5.8. Müraciətlər təsdiq və ya imtina olunur;

3.5.9. Əmr təsdiq edilir;

3.5.10. Əlavə funksiyalar (müraciətlərin hesabatının çıxarılması, ümumi cədvəllərdə izlənilməsi imkanı).

3.6. Portalda ödəniş addımı yalnız müəssisə təqdim edilmiş sənədləri yoxlayıb "ödəniş edilməlidir" statusu təyin etdikdən sonra görünür. Daha tez ödəniş etmək istəyən abituriyentlər gpp.az xidmətindən istifadə etdiyi bankdakı şəxsi kabinetindən və ya banka yaxınlaşaraq ödəniş edə bilərlər.

## 4. Komissiyaların fəaliyyəti

4.1. Qəbul planı layihəsində öz əksini tapmış ixtisasların sayına uyğun olaraq müvafiq say tərkibindən ibarət Müsabiqə Komissiyaları yaradılır.

4.2. Müsabiqə Komissiyaları Universitetə müsabiqə yolu ilə tələbə qəbulunu keçirir.

4.3. Boş yerlərin sayına uyğun olaraq ən yüksək bal toplamış namizədlər müsabiqədən keçmiş hesab olunur.

## 5. Müsabiqənin keçirilməsi

5.1. Müsabiqənin keçirilməsi məqsədi ilə Müsabiqə Komissiyasının sədri tərəfindən müsabiqə heyəti və müsabiqə prosesində iştirak edən digər şəxslər müəyyən edilir.

5.2. Müsabiqə qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

5.3. Müsabiqənin keçirilmə yeri və vaxtı Universitet tərəfindən müəyyən edilir və bu barədə namizədlərə müsabiqəyə azı 5 gün qalmış məlumat verilir.

5.4. Namizəd şəxsiyyətini təsdiq edən sənədi və ya qanunla müəyyən edilmiş qaydada ona bərabər tutulan sənədi təqdim etməklə, müsabiqədə iştirak edir.

5.5. Müsabiqə müsahibə mərhələsindən ibarətdir.

5.6. Müsahibə mərhələsi şifahi keçirilir.

5.7. Hər namizədə ən azı 20 dəqiqə vaxt ayrılır.

5.8. Müsahibə komissiyasının hər bir üzvü namizədin uyğunluğunu aşağıdakı meyarlara əsasən qiymətləndirir:

5.8.1. *bilik səviyyəsi* – namizədin ixtisas üzrə bilikləri;

5.8.2. *ümumi dünyagörüşü* – namizədin dünyada (ölkədə) və cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılığı, habelə bu hadisələrə dair mülahizələri.

5.9. Müsahibə başa çatdıqdan sonra müsahibə ilə bağlı müsahibə komissiyasının üzvləri arasında namizədin iştirakı olmadan fikir mübadiləsi aparılır.

5.10. Hər bir qiymətləndirmə meyarı üçün ən yüksək bal 5, ən aşağı bal isə 2-dir. Hər bir meyar üzrə verilmiş qiymətlər toplanaraq, namizəd barədə ümumi bal müəyyən edilir və "Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair bal cədvəli" ilə rəsmiləşdirilir (1 nömrəli əlavə).

5.11. Müsahibə komissiyasının üzvləri tərəfindən hər bir meyar üzrə verilmiş ballar "Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair bal cədvəli"nin müvafiq hissəsində qeyd olunmalı və hər bir meyar üzrə verilmiş bal əsaslandırılmalıdır.

5.12. Müsahibə komissiyası üzvlərinin verdiyi ümumi ballar toplanılır və komissiya üzvlərinin sayına bölünərək, orta bal müəyyən edilir. Müsahibənin yekun nəticələri "Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair yekun protokol"la rəsmiləşdirilir (2 nömrəli əlavə).

5.13. Müsahibədən 8 və daha çox bal toplamış namizəd müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunur.

5.14. Müsahibə mərhələsində ən yüksək bal toplamış şəxslər həmin bal ardıcıllığı ilə Universitet tərəfindən müəyyən edilmiş qəbul planına uyğun olaraq müvafiq ixtisaslara qəbul edilirlər.

5.17. Namizədlər arasında üstünlük aşağıdakı meyarlar və ardıcıllıqla müəyyən edilir:

5.17.1. elan verildiyi tarixdə məhkəmə və hüquq mühafizə orqanlarının əməkdaşı olmaq;

5.17.2. elmi dərəcəyə malik olmaq;

5.17.3. yazılı imtahanda daha çox bal toplamaq;

5.17.4. müvafiq ixtisas üzrə daha çox iş stajına malik olmaq;

5.17.5. daha yaxşı diplom göstəricilərinə malik olmaq.

5.18. Müsahibə nəticələri haqqında məlumat ən geci 5 iş günü ərzində namizədə bildirilir.

5.19. Namizədin müraciəti əsasında Müsahibə Komissiyası tərəfindən ona müsahibənin nəticəsinə dair məlumat portal.edu.az platforması üzərindən şəxsi kabinetinə göndərilir.

## 6. Müqavilənin bağlanması

6.1. Universitet və müvafiq ixtisaslara qəbul edilmiş ödənişli əsaslarla təkrar ali təhsil alacaq təhsilalan arasında müqavilə imzalanır (3 nömrəli əlavə).

6.2. Müqavilə Universitetinin şəxsində Tədris və tərbiyə işləri üzrə prorektoru tərəfindən və ödənişli əsaslarla təkrar ali təhsil alacaq təhsilalan tərəfindən imzalanır.

## 7. Yekun müddəalar

7.1. Bu Qaydalar Universitetin Elmi Şurası tərəfindən qəbul edildikdən və Universitetin rektoru tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir və ya ləğv edilir.

7.2. Bu Qaydalara əlavə və dəyişikliklər Universitetin Elmi Şurasının razılığı ilə edilə bilər.

"Naxçıvan Dövlət Universitetinin əlavə ali təhsil ixtisaslarına qəbul üçün sənəd təqdim etmiş şəxslərlə müsabiqənin keçirilməsi Qaydası"na

**1 nömrəli əlavə**

**Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair**

**BAL CƏDVƏLİ**

Foto
(3x4)

**Namizəd:**
**Təvəllüdü:**
**Test balı:**
**Bitirdiyi ali məktəb:**
**Qəbul olmaq istədiyi ixtisasın adı:**

| Qiymətləndirmə meyarları | Ballar | Balların əsaslandırılması |
|---|---|---|
| **1. Bilik səviyyəsi** (müsahibə proqramı üzrə biliklər) | | |
| **2. Ümumi dünyagörüşü:** (dünyada (ölkədə) və cəmiyyətdə baş verən mühüm hadisələrə dair məlumatlılıq, habelə bu hadisələrə dair mülahizələr) | | |
| **Ümumi bal** | | **Qeyd** |

**Uyğundur** ☐ **Uyğun deyildir** ☐

-------------------------------------------------- ---------------- --------------------

müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı | imza | tarix

"Naxçıvan Dövlət Universitetinin əlavə ali təhsil ixtisaslarına qəbul üçün sənəd təqdim etmiş şəxslərlə müsabiqənin keçirilməsi Qaydası"na

**2 nömrəli əlavə**

**Namizədin uyğunluğunun qiymətləndirilməsinə dair**

**YEKUN PROTOKOL**

Foto (3x4)

**Namizəd:**
**Təvəllüdü:**
**Test balı:**
**Bitirdiyi ali məktəb:**
**Qəbul olmaq istədiyi ixtisasın adı:**

Yekun qiymətləndirmə balı: ☐

Vəzifəyə uyğundur ☐ Vəzifəyə uyğun deyildir ☐

---------------------------------------------------------------------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---------------------------------------------------------------------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---------------------------------------------------------------------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---------------------------------------------------------------------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

---------------------------------------------------------------------------
müsahibə komissiyası üzvünün soyadı, adı, atasının adı imza

**Qeydlər:**

______________________________________________

"_____" __________ 20____ il

"Naxçıvan Dövlət Universitetinin əlavə ali təhsil ixtisaslarına qəbul üçün sənəd təqdim etmiş şəxslərlə müsabiqənin keçirilməsi Qaydası"na

**3 nömrəli əlavə**

**Naxçıvan Dövlət Universiteti ilə ödənişli əsaslarla təkrar ali təhsil alacaq təhsilalan şəxs arasında bağlanan**

# FƏRDİ MÜQAVİLƏ

**Naxçıvan şəhəri** **«____»____________2023-cü il**

Bu Müqavilə öz Nizamnaməsi əsasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetinin (bundan sonra – Universitet) şəxsində tədris və tərbiyə işləri üzrə prorektor ___________________________ ilə, ödənişli əsaslarla təkrar ali təhsil alacaq (bundan sonra - Təhsilalan) ______________________________ arasında "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və təhsil haqqında müvafiq normativ hüquqi aktlara uyğun olaraq bağlanılmışdır.

## 1. Müqavilənin predmeti

1.1. Müqavilənin predmeti Universitetdə ödənişli əsaslarla təkrar ali təhsilin həyata keçirilməsi zamanı tərəflərarasında yaranan münasibətlərdir.

## 2. Tərəflərin öhdəlikləri

2.1. Universitet aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

2.1.1. Təhsilalanın müvafiq tədris planına uyğun olaraq _______________________ ixtisası üzrə qiyabi təhsil formasında keyfiyyətli təkrar ali təhsil almasını təmin etmək;

2.1.2. Təhsilalana tədris və yay semestrlərində fənləri dinləməyə və akademik borclarını ödəməyə şərait yaratmaq;

2.1.3. Təhsilalandan təhsil müddətində bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsini, daxili intizamqaydalarına, etik qaydalara və əxlaq normalarına riayət edilməsini tələb etmək;

2.1.4. qanunvericilikdə nəzərdə tutulmuş digər öhdəliklərini icra etmək.

2.2. Təhsilalan aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

2.2.1. bu Müqaviləyə uyğun olaraq birinci tədris ilinin təhsil haqqını Universitetə qəbulun qeydiyyatı zamanı, digər illərdə növbəti tədris ili üçün sentyabrın 15-dək tam ödəmək;

2.2.2. seçdiyi ixtisas və təhsil forması üzrə tədris planlarını, tədris proqramlarını, eləcə də akademik borcu qalmış fənlər üzrə proqramları müvafiq qaydalara uyğun yerinə yetirmək;

2.2.3. akademik borcu olduğu halda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr

2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun ödəniş etmək;

2.2.4. Azərbaycan Respublikası qanunvericiliyini, bu Müqavilə üzrə öhdəlikləri yerinə yetirmək, daxili intizam qaydalarına, etik qaydalara və əxlaq normalarına riayət etmək;

2.2.5. Universitetə maddi və mənəvi zərər vurmamaq, zərər vurduqda Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq dəymiş maddi zərəri ödəmək;

2.2.6. bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini çətinləşdirən və ya mümkünsüz edən hallar haqqında Universitetə 3 iş günü müddətində məlumat vermək;

2.2.7. qanunvericilikdə nəzərdə tutulmuş digər öhdəliklərini icra etmək.

### 3. Təhsil haqqı və hesablaşma qaydası

3.1. Təhsilalanın hər tədris ili üçün təhsil haqqı ____________ (rəqəm və hərflə) AZN müəyyən edilir.

3.2. Təhsil haqqı Universitetin bank hesabına ödənilir.

### 4. Müqavilənin ləğv edilməsi qaydası

4.1. Tərəflərin biri üzərinə götürdüyü öhdəlikləri tam və lazımi qaydada yerinə yetirmədikdə, digər tərəf bu Müqaviləni birtərəfli qaydada ləğv edə bilər.

4.2. Bu Müqaviləyə Azərbaycan Respublikası qanunvericiliyinə, "Təhsil haqqında" Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq xitam verilə bilər.

4.3. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təhsilalan Universiteti dəyişdikdə müqaviləyə xitam verilir (bu müqavilənin ləğv edilməsinə səbəb olmuş hallar göstərilməklə).

### 5. Mübahisəli məsələlərin həlli və tərəflərin məsuliyyəti

5.1. Mübahisəli məsələlərin həlli Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və təhsil haqqında normativ-hüquqi aktlara və bu Müqavilədən irəli gələn şərtlərə əsasən həll edilməlidir.

### 6. Digər şərtlər

6.1. Bu Müqavilənin 2.2.1-ci bəndinin tələbləri təmin edilmədikdə Təhsilalan Universitetdən xaric edilə bilər.

6.2. Təkrar ali təhsil üzrə müraciət edən Təhsilalanın diplomunun, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əsasən xarici ölkələrin ali təhsil müəssisələrinin məzunlarının ali təhsilə dair kvalifikasiyasının tanınmasına dair Elm və Təhsil Nazirliyi tərəfindən müsbət cavab verilmədiyi halda Təhsilalan xaric edilir.

6.3. Təhsilalan hər hansı səbəbdən tələbələr sırasından xaric olunduğu halda Universitet tərəfindən bir qayda olaraq onun ödədiyi təhsil haqqı geri qaytarılmır.

6.4. Bu Müqavilə tərəflərin onu imzaladıqları andan qüvvəyə minir.

6.5. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik iki nüsxədə tərtib olunmuşdur, bir nüsxəsiTəhsilalana verilir, digər nüsxəsi Universitetdə təhsil alanın şəxsi işində saxlanılır.

6.6. Bu Müqavilə imzalandığı vaxtdan Təhsilalanın təhsil müddətinin sonunadək qüvvədə olur.

## 7. Tərəflərin rekvizitləri və imzaları

**Naxçıvan Dövlət Universiteti**

**Azərbaycan Respublikası, Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012**

Tədris və tərbiyə işləri üzrə prorektor:

______________________________
vəzifəsi

______________________________

______________________________
soyadı, adı, atasının adı

______________________________

______________________________
dövlət orqanının müştərisi olduğu bankın adı

______________________________

______________________________
müxbir hesab

______________________________

______________________________
S.W.I.F.T.

______________________________

______________________________
hesablaşma hesabı

______________________________

______________________________
kod

______________________________
vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) (bank)

______________________________

______________________________
imza

______________________________

______________________________
tarix

**Təhsilalan**

______________________________
soyadı, adı, atasının adı

______________________________

______________________________
ünvanı

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________
imza

______________________________

______________________________
tarix